2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Tofiq Həsənovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 27 dekabr 2019-cu il tarixli 31 saylı müraciət üzrə

# RƏYİ

Bakı şəhəri                                                    31 dekabr 2019-cu il

Mən, ekspert qrupunun üzvü Tofiq Həsənov 2019-cu il dekabrın 23-də bələdiyyələrə keçirilmiş seçkilərdə 29 saylı Səbail seçki dairəsindən Bibi-heybət bələdiyyəsi üzrə qeydə alınmış namizəd Həsənova Səmayə Xanəhməd qızı və digərlərinin 29 saylı Səbail seçki dairəsi 32 saylı seçki məntəqəsində səsvermənin nəticələrinin mübahisələndirilməsinə və Bibi-heybət bələdiyyəsi üzrə seçkilərin nəticələrinin ləğv edilməsinə dair 27 dekabr 2019-cu ildə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına daxil olmuş 31 saylı müraciətini nəzərdən keçirərək **m ü ə y y ə n e t d i m :**

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəsi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında” Təlimatın tələblərinə uyğun olaraq araşdırmaya qəbul edilmişdir.

Namizədlər öz müraciətlərində göstərmişlər ki, səsvermə günü onlar yüksək səs topladığı halda, onlardan az səs toplayan namizədlər bələdiyyəyə üzv seçilmişlər.

Araşdırma prosesində müraciətin araşdırılması müddəti Mərkəzi Seçki Komissiyasının 29 dekabr 2019-cu il tarixli qərarı ilə 3 gün müddətinə uzadılmışdır.

29 saylı Səbail seçki dairəsinin Bibi-heybət bələdiyyəsi üzrə 30 və 32 saylı məntəqə seçki komissiyalarının yekun protokolarının araşdırılması zamanı müəyyən edilmişdir ki, həmin protokollar seçki qanunvericiliyinin tələblərinə uyğun tərtib edilmişdir.

Araşdırma nəticəsində şikayətin təmin edilməsi üçün hüquqi əsaslar müəyyən olunmamışdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-cü, 28.4-cü, 112-ci, 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın 1, 2, 4, 6 və 7-ci hissələrinə əsasən **rəyə gəldim:**

1. 2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 29 saylı Səbail seçki dairəsindən Bibi-heybət bələdiyyəsi üzrə qeydə alınmış namizəd Həsənova Səmayə Xanəhməd qızı və digərlərinin 27 dekabr 2019-cu il tarixli 31 saylı müraciəti əsassız olduğundan təmin olunmasın.
2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü                                                    Tofiq Həsənov